

# Gücünü tarixdən alan, gələcəyə addımlayan strateji müttəfiqlik

*Türk tarixinin ən şərəfli səhifələrindən biri Azərbaycan ilə Türkiyə arasında formalaşmış və günümüzdə daha da möhkəmlənmiş qardaşlıq münasibətləridir. Bu münasibət kökü min illərə dayanan ortaq mənəvi yaddaşın, dilin, mədəniyyətin və müqəddəs dəyərlərin birliyindən doğan sarsılmaz bağlılıqdır.*

Azərbaycan və Türkiyə tarix boyu eyni amal uğrunda mübarizə aparmış, eyni dərdi bölüşmüşdür. "Bir millət, iki dövlət" ifadəsi illərlə sınanmış və təcrübədə özünü sübut etmiş strateji fəlsəfədir. Bu bütün dövrlərdə iki dövlətin bir-birinə necə dayaq durduğunu aydın şəkildə ortaya qoyur. Məhz Prezident İlham Əliyevin ötən gün Türkiyəyə işgüzar səfəri və Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışında iştirakı bu nümunənin növbəti epizodudur.

**(davamı 5-ci səhifədə)**




# Gücünü tarixdən alan, gələcəyə addımlayan strateji müttəfiqlik






(əvvəli 1-ci səhifədə)

Azərbaycan-Türkiyə münasibətlərinin dərin kökləri var. Bu bağlar eyni etnik və dil kökənindən gəlmiş, ortaq tarix, ədəbiyyat, musiqi, dini inanclar və adət-ənənələr vasitəsilə daim vəhdətdə olmuşdur. Klassik şeirlərdə Füzulidən tutmuş Yunus Əmrəyə qədər ortaq söz sərvətinə söykənən şairlər, dədə-baba süfrələrində bənzər mətbəxlər, toy-düyünlərdəki oxşar ənənələr və bayramlar bu xalqların bir-birindən nə qədər ayrılmaz olduğunu göstərir.

1991-ci ildə ölkəmizin müstəqilliyini bərpa etməsi ilə Azərbaycan-Türkiyə münasibətlərində yeni və parlaq mərhələ başladı, Türkiyə Azərbaycanın müstəqilliyini tanıyan ilk dövlət oldu. Bu, bir millətin digərinə uzatdığı səmimi qardaşlıq əli idi. Diplomatik əlaqələr quruldu və bu münasibət zamanla daha da gücləndi. Türkiyə Azərbaycanın müstəqil siyasətinin formalaşmasında, dövlət institutlarının qurulmasında və iqtisadi modelin müəyyənləşməsində mühüm rol oynadı. Tələbə mübadilələri, texniki yardımlar, investisiyalar və mədəni tədbirlər iki xalq arasında körpülərin daha da möhkəmlənməsinə şərait yaratdı.

Azərbaycan-Türkiyə münasibətləri yalnız dostluq və qardaşlıq səviyyəsində qalmayıb, bu gün real və strateji əməkdaşlığa çevrilib. İki ölkə arasında siyasi əlaqələr ən yüksək səviyyədədir. Prezidentlər səviyyəsində qarşılıqlı səfərlər, verilən ortaq bəyanatlar, keçirilən birgə sammitlər əlaqələrin davamlı inkişafına zəmin yaradır.

İqtisadi sahədə də münasibətlər dinamik və yüksələn xətlə inkişaf edir. TANAP və TAP kimi beynəlxalq enerji layihələri Azərbaycanın enerji resurslarının Avropaya daşınmasında Türkiyənin mühüm tranzit rolu oynamasına şərait formalaşdırıb. Eyni zamanda iki ölkə arasında ticarət dövriyyəsi və qarşılıqlı sərmayə yatırımları ildən-ilə artır.

Bu gün qardaş ölkələr, eyni zamanda Türk Dövlətləri Təşkilatı çərçivəsində bütün türk dünyasının birliyi üçün fəal çalışır. Mədəni irsin qorunması, türkdilli ölkələr arasında nəqliyyat bağlantılarının gücləndirilməsi, ortaq media platformalarının yaradılması, elm və təhsil sahəsində inteqrasiya təşəbbüsləri bu birliyin gələcəyinə işıq tutur. Əsrlər boyu eyni mədəni kodları paylaşan Azərbaycan və Türkiyə bu gün regional və qlobal miqyasda daha güclü siyasi məna qazanmış strateji tərəfdaşlıq modelini təcəssüm etdirir. Bu tərəfdaşlığın təməli qardaş xalqların iradəsi, liderlərin uzaqgörənliyi və inamı addımlarla möhkəmlənmişdir. Müasir dövrdə bu əməkdaşlıq təkcə iki ölkə üçün deyil, bütövlükdə türk dünyası və Avrasiya məkanı üçün sabitlik, inkişaf və inteqrasiya rəmzinə çevrilib. Azərbaycan və Türkiyə dünyanın aparıcı beynəlxalq təşkilatlarında - BMT, ATƏT və İslam Əməkdaşlıq Təşkilatında eyni mövqedən çıxış edir, bir-birinin haqlı mövqeyini dəstəkləyir. Xüsusilə, Azərbaycanın 30 il davam edən işğala son qoyduğu İkinci Qarabağ müharibəsi zamanı Türkiyənin siyasi və mənəvi dəstəyi bu qardaşlığın sözlə yox, əməllə yaşadığını sübut etdi. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın "Azərbaycan tək deyil!" ifadəsi ən güclü diplomatik mesajlardan biri olaraq tarixə düşdü.

Regionda təhlükəsizliyin təməl sütunlarından olan iki dövlət müxtəlif bölgələrdə keçirilən birgə hərbi təlimlərlə ordularının döyüş hazırlığını artırır, operativ koordinasiyanı möhkəmləndirir, müştərək müdafiə qabiliyyətini gücləndirir. Bu təlimlər həm də NATO ilə əməkdaşlığın genişləndirilməsinin və Avro-Atlantik təhlükəsizlik mexanizmına inteqrasiyanın göstəricisidir. Azərbaycanın müasir silahlı qüvvələrinin formalaşmasında Türkiyə modelinin və hərbi-strateji dəstəyinin rolu əvəzsizdir. Türk dünyası ortaq tarixə, dilə, mədəniyyətə və dini köklərə malik olan, lakin uzun müddət fərqli siyasi sistemlərdə yaşamış ailədir. Bu ailənin yenidən bir araya gəlməsi və möhkəmlənməsi isə Azərbaycan və Türkiyənin təşəbbüsləri ilə mümkün olub.

Bu gün 7 müstəqil türk dövləti və bir neçə muxtar qurum arasında inteqrasiya prosesində rəsmi Bakı ilə Ankara aparıcı lider rolu oynayır. İqtisadi əməkdaşlıqdan mədəniyyət mübadiləsinə, təhsil təşəbbüslərindən təhlükəsizlik məsələlərinə qədər bütün sahələrdə bu iki ölkə Türk dünyasına yol göstərir. 2009-cu ildə təsis edilən Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası (TDƏŞ) 2021-ci ildən etibarən Türk Dövlətləri Təşkilatına (TDT) çevrilərək təsir gücünü də artırdı. Bu, türk coğrafiyasının beynəlxalq sistemdə vahid mövqedən çıxış etməsinə şərait yaratdı. Türk Dövlətləri Təşkilatı bu gün ortaq əlifbanın tətbiqi, vahid gömrük məkanı, təhsil sahəsində inteqrasiya, ortaq media qurumlarının yaradılması kimi layihələrlə Türk dünyasını daha da yaxınlaşdırır. Ötən il iyulun 6-da Şuşada qeyri-rəsmi TDT Zirvə görüşü isə bu birliyin mədəni, siyasi və mənəvi dayaqlar üzərində qurulduğunun bariz sübutudur. Azərbaycan və Türkiyə arasındakı strateji tərəfdaşlıq gələcəyin quruculuğu, səmimi dostluğun, qarşılıqlı ehtiramın və regional sabitliyin rəmzidir.

2023-cü il fevralın 6-sı Türkiyə-Azərbaycan qardaşlığının dünyaya nümayiş olunduğu gün kimi tarixə yazıldı. Türkiyənin Kahramanmaraş vilayətində və ətraf bölgələrdə baş verən güclü zəlzələ minlərlə insanın həyatını dəyişdi, şəhərlər yerlə-yeksan oldu. İlk saatlardan Azərbaycan dövləti və xalqı qardaşlığını, humanistliyini nümayiş etdirdi. Prezident İlham Əliyev fevralın 6-da Türkiyənin Prezidenti Rəcəb Tayyib Ərdoğana başsağlığı məktubu ünvanladı: "Kahramanmaraşda baş vermiş və qardaş Türkiyənin bir çox yerlərində hiss edilmiş güclü zəlzələ nəticəsində çoxsaylı insan tələfatı və dağıntılar barədə xəbər bizi olduqca kədərləndirdi. Bu ağır məqamda hər cür yardım göstərməyə hazır olduğumuzu bildiririk".

Zəlzələnin baş verdiyi ilk gün Prezident İlham Əliyev Türkiyəyə yardım missiyasının başladılmasını tapşırdı. Həmin gün Fövqəladə Hallar Nazirliyinin 420 nəfərdən ibarət çevik xilasetmə qrupu fəlakət bölgəsinə yola düşdü. Fevralın 7-də mobil səhra hospitalı və 41 nəfərdən ibarət tibbi heyət, növbəti gün isə daha 227 nəfərdən ibarət xilasedici qüvvə qardaş ölkəyə göndərildi. Dağıntılar altında qalanların axtarışı üçün xüsusi texnika, çadırlar, istilik avadanlıqları, ədyallar və konteynerlər yola salındı. 5373 ton humanitar yardım paketinə 9183 çadır, 145 konteyner tipli mobil ev, səhra hospitalı, səhra mətbəxi, generatorlar və digər həyati əhəmiyyətli ləvazimatlar daxil idi. Azərbaycan xilasedicilər dağıntılar arasından 53 nəfəri sağ çıxardı, ümumilikdə isə 3123 nəfərə tibbi yardım göstərildi. Bu yardımların ümumi maliyyə dəyəri 31 milyon 510 min 900 ABŞ dolları (53 milyon 568 min 530 manat) təşkil etdi. Həmçinin 13 milyon 397 min 883 ABŞ dolları (22 milyon 776 min 400 manat) birbaşa maliyyə yardımı şəklində təqdim olundu.

Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondu da bu prosesdə yaxından iştirak etdi. Fondun təşəbbüsü ilə dərhal humanitar yardım karvanları hazırlanaraq Türkiyəyə yola salındı. Yardımlar ərzaq və geyimlər, eləcə də psixoloji dəstək, tibbi avadanlıq və zəruri texniki ləvazimatlarını əhatə etdi. Fondun nəzdində fəaliyyət göstərən "Regional İnkişaf İctimai Birliyi" (RİİB) Türkiyənin Azərbaycandakı səfirliyi ilə birgə fəaliyyət göstərərək cəmiyyətin bütün təbəqələrindən dəstək cəlb etdi.

Zəlzələ baş verən andan etibarən xalqımız könüllü yardım kampaniyalarına qoşuldu. Məktəblilər əl işi hazırlayıb sataraq əldə etdikləri vəsaiti zərərçəkənlərə bağışladılar. Xaricdə yaşayan azərbaycanlılar da prosesdən geri qalmadılar, diaspor üzvləri Türkiyəyə yardımlar göndərdilər, tərcümə və koordinasiya işlərinə dəstək oldular. Bir ana İstanbulda zəlzələdən zərər çəkmiş körpə üçün beşik düzəltdirdi, bir tələbə aylıq təqaüdünü köçürdü, bir yaşlı nənə çantasındakı son pulu ianə etdi.

Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin yaradılması ölkəmizin Türkiyəyə qardaşlıq dəstəyinin daha bir nümunəsidir. Layihə 100 milyon dollarlıq tikinti işlərini əhatə edir. "Azərbaycan və Türkiyə arasında Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikintisi barədə əməkdaşlıq haqqında" saziş 2023-cü il sentyabrın 25-də Naxçıvan şəhərində imzalanıb. Ümumi sahəsi 27,6 hektarlıq ərazini əhatə edən məhəllədə 1194 mənzildən ibarət 68 yaşayış binası var. Həmçinin Heydər Əliyev adına məktəb, uşaq bağçası, mədəniyyət mərkəzi və s. binalar inşa olunub. Burada məskunlaşacaq ailələr üçün 1595 ticarət obyekti də yaradılıb. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan Kahramanmaraşda Azərbaycanın dəstəyi ilə inşa edilən "Azərbaycan" məhəlləsi barədə paylaşım edib. Prezident "X" sosial şəbəkəsində zəlzələ bölgəsində yaradılan məhəllədəki mənzillər və digər infrastruktur barədə məlumat verərək bildirib ki, məhəllədə 49 min 56 iş və yaşayış yeri inşa olunub. Beləliklə, zəlzələdən sonra təhvil verilən mənzil sayı 250 minə çatıb.

Azərbaycan-Türkiyə qardaşlığının əyani nümunəsi olan "Azərbaycan" məhəlləsi artıq ilk sakinlərini qəbul etməyə hazırdır. Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin açılışı olub, prezidentlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan burada iştirak ediblər. Çıxış edən ölkə başçısı İlham Əliyev iki ölkənin sarsılmaz qardaşlığından və birliyindən bəhs edərək bildirib ki, ilk gündən qardaşlıq borcunu yerinə yetirmək üçün on minlərlə azərbaycanlı Bakıda, Azərbaycanın müxtəlif şəhərlərində humanitar yardım göstərmək üçün məntəqələrə gəlib öz qardaşlıq yardımını göstərməyə başlamışdır.

Prezident İlham Əliyev məhəllənin açılış mərasimində çıxışında bildirdi ki, dörd il bundan əvvəl Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi münasibətlərimizi ən yüksək zirvəyə, rəsmən müttəfiqlik səviyyəsinə qaldırmışdır. Biz dostuq, qardaşıq, müttəfiqik, həm siyasi, həm iqtisadi, həm enerji, nəqliyyat, hərbi və bütün başqa sahələrdə Türkiyə və Azərbaycan iki qardaş ölkə bir-birinin yanında inamla uğurla irəliləyir.

Xatırladaq ki, mayın 28-də, Müstəqillik Günündə Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan Laçın Beynəlxalq Hava Limanının təntənəli açılış mərasimində birgə iştirak etdilər. Türkiyə Prezidenti daha əvvəl Füzuli və Zəngilan hava limanlarının da açılışında iştirak edərək Qarabağda həyata keçirilən bərpa və yenidənqurma prosesində ön sıralarda yer almışdı. Kahramanmaraşda "Azərbaycan" məhəlləsinin istifadəyə verilməsi zamanı Rəcəb Tayyib Ərdoğan vurğuladı ki, bu gün Qarabağın hər qarışı Prezident İlham Əliyevin rəhbərliyi ilə inşa olunan böyük bir dirçəliş layihəsinin tərkib hissəsidir. Bildirdi ki, qardaşım İlham Əliyevlə birgə bu mühüm layihənin açılışında iştirak etmək mənim üçün qürurvericidir. Bu birlik təkcə siyasi müttəfiqliyin deyil, həm də milli iradənin və tarixə söykənən qardaşlığın bariz nümunəsinə çevrildi.

Türkiyə lideri bildirdi ki, indiyədək Türkiyədə zəlzələdən zərər çəkmiş bölgələrə 2 trilyon lirə investisiya qoyulub. Həmçinin əsrin fəlakətindən sonra bərpa olunan və sakinlərinə təhvil verilən mənzillərin sayı hər gün artır. Təslim etdiyimiz mənzillərin sayı sentyabrda 100, oktyabrda 130, yanvarda 201 minə çatdırılıb. Bu gün isə o rəqəm 250 minə yüksəlib. Hatayda 21 min 114, Malatyada 8 min 64, Adıyamanda 3 min 554, Qaziantepdə 675, Adanada 490, Şanlıurfada 1 263, Sivasda 85, Kayseridə 49 mənzil inşa edilib. Kahramanmaraşda isə 3 min 567 mənzil, 744 iş yeri təsis olunub. 2025-ci ilin sonuna kimi 453 min mənzilin inşası nəzərdə tutulur. Eyni zamanda, Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan türk şair və jurnalist Abdülrahim Karakoçun "Qarabağa məktub" şeirini səsləndirib. Görkəmli türk şairi, publisist və jurnalist Abdülrahim Karakoçun "Qarabağa məktub" şeiri 1992-ci ildə Qarabağda erməni işğalının və Xocalı soyqırımının ardınca yazılıb və türkün dərindən sarsılmış vicdanının poetik fəryadıdır. Şeir Azərbaycanın yaşadığı ağrını sadəcə kənardan izləməyən, onu öz milli və mənəvi dərdi kimi qəbul edən Anadolu türklərinin səmimi hisslərinin ifadəsidir. A.Karakoç "sizdəki yaranın özü bizdədir" deyərək Azərbaycan xalqının yalnız olmadığını, bu ağrının Anadolunun bağrını da qanatdığını vurğulayır. Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın məhz ötən gün bu şeiri səsləndirməsi təsadüfi deyildi. 30 il boyunca Qarabağ münaqişəsində daima qardaşının yanında olan Türkiyə müharibədən sonra da istər bərpa-quruculuq, istərsə də beynəlxalq arenalarda Azərbaycanın haqq səsinə səs verməyə davam edir. Bu isə iki qardaş ölkənin, xalqın heç vaxt xəbis niyyətlər uğrunda ayrı düşməyəcəyinə işarədir

Bu gün fəlakətin yaraları bəlkə də tam sağalmayıb, amma qardaşlığın gücü həmin yaraları birgə sarımaq üçün məlhəm olur. Bu birliyin mərkəzində də Bakı və Ankara şübhəsiz ki, çiyin-çiyinə dayanır. İki ölkə arasında münasibətlər bu gün dünyada nümunəvi dövlətlərarası əlaqə modeli kimi göstərilir. Hərbi gücdən mədəni diplomatiyaya, enerji siyasətindən regional təhlükəsizliyə qədər uzanan əlaqələr xalqların iradəsinə əsaslanan sarsılmaz təməllər üzərində qurulub. Bu qardaşlıq tarixdən gəlir, bu gün də yaşanır və gələcəyə doğru inamla addımlayır. Necə ki, Vətən müharibəsi dövründə Türkiyənin "Azərbaycan tək deyil!" çağırışı hər bir azərbaycanlının qəlbinə ümid işığı kimi dolmuşdu, eləcə də bu gün Azərbaycanın "Bir millət, iki dövlət!" ifadəsi Anadolunun hər yerindən eşidilir.

**Ləman TƏHMƏZ,**
**"Respublika".**